**NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN**

# S Ə R Ə N C A M I

**“Duzdağ Fizioterapiya Mərkəzi” publik hüquqi şəxsin ləğv edilməsi və əmlakının Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinə verilməsi haqqında**

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Duzdağ Fizioterapiya Mərkəzi” publik hüquqi şəxsi ləğv edilsin və əmlakı Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinə verilsin.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti iki ay müddətində:

2.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının bu Sərəncama uyğunlaşdırılması ilə bağlı təkliflərini Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin;

2.2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat versin;

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi:

3.1. “Duzdağ Fizioterapiya Mərkəzi” publik hüquqi şəxsin ləğv edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini təmin etsin;

3.2. bu Sərəncamdan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

4. Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi:

4.1. bir ay müddətində bu Sərəncamın 1-ci hissəsi ilə ləğv edilən publik hüquqi şəxsin əmlakının Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinə təhvil verilməsini təmin etsin;

4.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

5. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini** **ANAR İBRAHİMOV**

Naxçıvan şəhəri, 08 aprel 2024-cü il

№ 452-06/S